*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 13 noyabr 2019-cu il № 88 (2405) Qiyməti 30 qəpik


*Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürür. Cəmiyyətin firavanlığının təmin edilməsini, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar olunmasını, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edir.*

## Ümummilli lider Heydər ƏLİYEV:

# Biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq



Dövlətimiz müstəqilliyini bərpa etdikdən sonra qanunçuluq ideya və dəyərləri Konstitusiya ilə təsbit edildi. Dövlətin qüdrəti, beynəlxalq nüfuzu həm də onun milli iradəni nə dərəcədə ifadə etməsilə ölçülür. Demokratiya yeni dünya nizamına uyğun olaraq, bir dövlətin öz milli iradəsinə qarşı beynəlxalq güclərə etdiyi güzəştlər sistemi deyil, əksinə, milli sınaqlar sistemi və bu baxımdan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması üçün yaratdığı sarsılmaz təminatdır.

Hazırlanması və qəbul edilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin dönməz iradəsi, gərgin əməyi, dərin hüquq düşüncəsi və siyasi uzaqgörənliyi nəticəsində mümkün olan Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu gün - 12 noyabr hər il ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd olunur.

Konstitusiyamız azad düşüncə, bərabərlik, dini inanclara hörmətlə yanaşma, vətəndaşlığa ehtiram Konstitusiyasıdır.

Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra olduqca çətin şəraitdə, siyasi-hüquqi, sosial-iqtisadi vəziyyətin ağır olduğu bir dövrdə ölkənin ali hüquqi qüvvəyə malik sənədini - Konstitusiyasını hazırlamaq, özü də müxtəlif siyasi qüvvələrin təsirindən azad, demokratik dəyərlərə əsaslanan, xalqın iradəsini tam əks etdirən bir formada qəbul etmək olduqca çətin idi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xüsusi həssaslıq və güclü siyasi iradə tələb edən məsələni həll etdi.

1995-ci ildə Konstitusiyanı ümumxalq səsverməsinə hazırlamaq məqsədilə Komissiya yaradıldı. Komissiyanın ilk iclası 1995-ci il iyunun 5-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirildi. İclasda ölkənin təcrübəli və yüksək təhsilli hüquqşünasları, dövlət hakimiyyətinin hər üç qolundan olan nümayəndələr, ziyalılar, alimlər iştirak etdi. Əsas Qanunun baza müddəaları, daha sonra isə onun layihə mətni ictimai müzakirəyə çıxarıldı.

Konstitusiyanın əsas prioritet istiqamətləri Komissiyanın ilk iclasında ulu öndər Heydər Əliyev tərəfindən açıqlanmışdır: "Konstitusiya birinci növbədə, dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir".

1995-ci il noyabrın 12-də Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək ümumxalq səsverməsi - referendum yolu ilə ilk milli Konstitusiyasını qəbul etdi. Konstitusiyada demokratik təsisatlar, hüquqi dövlətin atributları, hakimiyyət bölgüsü, insan hüquq və azadlıqları və onların təminatı kimi mütərəqqi müddəalar öz əksini tapmışdı. Dövlət müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq kimi bəşəri niyyətlər də ifadə edilib ki, bu da onun demokratik dəyərlərini əks etdirir və hüquqilik dəyərinə, demokratiklik əlamətlərinə görə dünyanın bir çox inkişaf etmiş dövlətlərinin konstitusiyaları ilə müqayisədə daha təkmil, daha əhatəlidir.

Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoyan ilk Konstitusiyamız 5 bölmədən, 12 fəsildən, 158 maddədən ibarətdir. Konstitusiyamız Azərbaycan xalqının maraqlarını qoruyur və ölkə başçısı tərəfindən edilən hər bir dəyişiklik qanunla tənzimlənir.

Azərbaycan Respublikasının Konstitusiyasına edilən əlavə və dəyişikliklər nəticəsində Əsas Qanun daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb.

Konstitusiyamızın müddəalarından irəli gələrək dövlətin ali məqsədi sayılan insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi istiqamətində Prezident İlham Əliyev tərəfindən çoxşaxəli islahatlar həyata keçirilir.

Azərbaycan Respublikası Konstitusiyası möhkəm hüquqi bazaya malikdir və bu ali normativ sənəd hələ uzun müddət müstəqil dövlətimizin demokratik inkişaf hədəflərini müəyyənləşdirəcəkdir.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri Dövlət Bayrağı Gününü hərbi hissədə qeyd edib



*Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Azərbaycan Ordusunun hərbi hissələrindən birində əsgər valideynlərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Dövlət Bayrağı Günü münasibətilə keçirilən andiçmə mərasimində və "Açıq qapı" günü ilə əlaqədar tədbirdə iştirak ediblər.*

Müdafiə Nazirliyinin rəhbərliyi əvvəlcə hərbi hissənin ərazisində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, Ulu Öndərin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad edib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, sonra hərbi hissədə gənc əsgərlərin hərbi andiçmə mərasimi keçirilib. Gənc əsgərlər sıra meydanında Vətənə sədaqət andı içiblər.

"Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı bir daha şəxsi heyətin diqqətinə çatdırılıb.

Bayram nitqi ilə çıxış edən Müdafiə naziri Ali Baş Komandanın ordu qarşısında qoyduğu tapşırıqları diqqətə çatdıraraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqəti, qayğısı və birbaşa rəhbərliyi nəticəsində Azərbaycan Ordusu sürətlə inkişaf edir, ölkənin hərbi qüdrətinin artırılması sahəsində yüksək nailiyyətlər əldə olunub.

Nazir qeyd edib ki, ordumuz müasir silah və hərbi texnika ilə silahlanır, yeni hərbi hissələr, yaşayış kompleksləri inşa edilərək istifadəyə verilir. Bütün bunlar bizə imkan verir ki, Azərbaycan Ordusunun qoşun növləri, hərbi hissələri və bölmələrinin döyüş qabiliyyətini, o cümlədən şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını yüksək səviyyədə saxlayaq, hərbi qulluqçuların sosial müdafiəsini gücləndirək, xalqımızın ordusuna və işğal olunmuş torpaqların tezliklə azad olunacağına inamını daha da artıraq, gənc nəsli isə hərbi xidmətə həvəsləndirək.



"Hər bir Azərbaycan əsgəri döyüş hazırlığını daim artırmalı, nümunəvi və nizam-intizamlı olmalı, sərəncamındakı ən müasir silah və hərbi texnikanı bacarıqla tətbiq etməyə qadir olmalı, işğalçılara qarşı döyüşlərdə mərdlik və fədakarlıq göstərməyə hər an hazır olmalıdır.

Azərbaycan Ordusunun gücü məhz şəxsi heyətin vətənpərvərliyində, döyüş əzmi və ruh yüksəkliyində, yüksək nizam-intizamında və peşəkarlığındadır", - deyə Müdafiə naziri bildirib.

Nazir Dövlət Bayrağı Günü münasibətilə şəxsi heyəti təbrik edərək ona uğurlar arzulayıb.

Andiçmə mərasimi şəxsi heyətin təntənəli marşla tribunanın önündən keçidi ilə başa çatıb.

Əsgər valideynləri ilə görüşən general-polkovnik Zakir Həsənov hərbi xidmətlə əlaqədar onları maraqlandıran sualları cavablandırıb, bir sıra məsələlərin həlli ilə bağlı müvafiq vəzifəli şəxslərə göstərişlər verib.

Sonra "Açıq qapı" günü çərçivəsində Müdafiə naziri tədbir iştirakçıları ilə birlikdə hərbi hissədə təşkil olunan "Azərbaycanın tarixi bayraqları" sərgisinə baxış keçirib. Tədbir iştirakçılarına tarixin müxtəlif dövrlərinə təsadüf edən Azərbaycanın dövlət bayraqları haqqında ətraflı məlumat verilib.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının ifasında geniş konsert proqramı ilə davam edib.

Tədbirin sonunda Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətlə birlikdə nahar edib.

# Müdafiə naziri əməliyyat təlimlərinin başlanması ilə bağlı məruzələri dinləyib

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusu miqyasında əməliyyat təlimlərinin başlanması ilə bağlı nazirliyin rəhbər heyəti ilə xidməti müşavirə keçirib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, döyüşü idarəetmə mərkəzində keçirilən toplantıda bildirilib ki, təlimin planına əsasən, Azərbaycan Ordusunun birlik və birləşmələri, qoşun növləri və qismləri həyəcan siqnalı ilə qaldırılaraq tam döyüşə hazırolma dərəcəsinə gətirilib.



Müşavirə zamanı əsas və ehtiyat idarəetmə məntəqələri, həmçinin qoşun növlərinin komanda məntəqələri ilə birbaşa videobağlantı qurularaq qoşunların cari vəziyyəti ilə bağlı brifinq təqdim olunub, əməliyyat şəraiti, kəşfiyyat fəaliyyəti, aviasiya və raket-artilleriya qoşunlarının döyüş imkanları barədə məruzələr dinlənilib.

Müxtəlif qoşun növlərinin əməliyyatların planlaşdırılması qruplarında olan Müdafiə naziri qoşunlara və bölmələrə qərarların və döyüş tapşırıqlarının çatdırılması üzrə müvafiq göstərişlər verib.

# STANAG testlərinin tərtib edilməsi üzrə təcrübə mübadiləsinə dair seminar keçirilib

Azərbaycan və Serbiya Müdafiə nazirlikləri arasında 2019-cu il üçün ikitərəfli əməkdaşlıq planına əsasən Silahlı Qüvvələrin Hərbi Akademiyasında seminar keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, STANAG testlərinin tərtib edilməsi üzrə təcrübə mübadiləsinə və hazırlanmış testlərin qarşılıqlı sınaqdan keçirilməsinə dair seminarda test materiallarının moderasiya edilməsi, pilotlanması, qarşılıqlı istifadəsi, nəticələrin uzlaşdırılması mövzuları və xarici dil mərkəzləri ilə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, noyabrın 13-də Tərtər rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç və Gennadi Petrika keçirəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***12 noyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Cəvahirli, Füzuli rayonunun Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# “Qarabağ Azərbaycandır və nida işarəsi” devizi ilə yürüş keçirildi

*Müdafiə Nazirliyi və Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin birgə təşkilatçılığı ilə Dövlət Bayrağı Günü münasibətilə "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi altında yürüş keçirildi. Yürüşdə Müdafiə Nazirliyinin, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin nümayəndələri, Qarabağ müharibəsi əlilləri və veteranları, həmçinin ictimaiyyət nümayəndələri iştirak edirdilər.*



Iştirakçılar Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında səsləndirdiyi "Qarabağ Azərbaycanın tarixi, əzəli torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" fikrinə dəstək kimi keçirilən yürüş boyunca Bakıdan Tərtərə, Qazaxdan Gəncəyə, Biləsuvardan Beyləqana gedən avtomobil yollarının üzərində yerləşən şəhər və rayonlardakı Şəhidlər xiyabanlarını, həlak olmuş döyüş yoldaşlarının məzarlarını ziyarət edib, xatirələrini ehtiramla andılar. Yolboyu Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin səyyar səsyayma avtomobili vasitəsilə zəfər marşı səsləndirilirdi.

Əvvəlcə tədbir iştirakçıları Şirvan şəhər Şəhidlər xiyabanını ziyarət etdi, torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edənlərin məzarları önünə gül dəstələri qoydular. Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev çıxışında qeyd etdi ki, üçrəngli bayrağımızın dövlət rəmzi kimi bərpası və yüksəldilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. "Ulu Öndərin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı il noyabrın 17-də bu barədə qərar verib və həmin bayraq Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildi. Eyni zamanda, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxıb və üçrəngli bayrağın Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi".

Şirvan şəhər İcra Hakimiyyəti başçısının müavini Məharət Mustafayev Azərbaycan xalqının və dövlətinin varlığının, istiqlalının və müstəqilliyinin müqəddəs rəmzlərindən olan bayrağımızın tarixi haqqında ətraflı məlumat verdi. Tədbir iştirakçılarının diqqətinə çatdırdı ki, bu bayrağın yenidən qaldırılması üçün canlarını fəda etmiş Vətən övladlarının xatirəsi hər zaman hörmət və ehtiramla yad edilir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda ilk dəfə olaraq Muxtar Respublikanın bayrağı kimi qəbul olunan Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı haqqında geniş söhbət açdı və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sayəsində bu bayrağın tezliklə Şuşada, Xankəndidə, Laçında, Kəlbəcərdə və işğal alltında olan digər torpaqlarda dalğalanacağına əminliyini bildirdi.

Sonra yürüş iştirakçıları Yevlax şəhər Şəhidlər xiyabanını ziyarət etdilər. Yevlax şəhər İcra Hakimiyyətinin nümayəndəsi Hümbət Əhmədov qonaqları Yevlax şəhərində görməsindən məmnun olduğunu vurğuladı. O, Dövlət Bayrağı Günü münasibətilə onları təbrik edərək bildirdi ki, bayrağımız tarixin keşməkeşli yollarından keçib, illərin sınağından çıxıb, müstəqillik uğrunda gedən mücadilələrdə minlərlə oğul və qızlarımız şəhid olub. Ona görə bu bayraq hər bir azərbaycanlı üçün müqəddəsdir.

Tərtər rayon Şəhidlər xiyabanını da ziyarət edən yürüş iştirakçıları torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdi, məzarları önünə gül dəstələri qoydular. Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov Azərbaycanın əbədi rəmzi, tarixi qələbələrimizin şahidi olan üçrəngli bayrağımızın ilk dəfə ucaldıldığı tarixdən və noyabrın 9-nun Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunmasının əhəmiyyətindən danışdı. Bildirdi ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Dövlət bayrağı ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyini nümayiş etdirir.

- Ulu Öndərin siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev də Azərbaycanın milli dövlət atributlarını uca tutur və konkret addımları ilə bu ruhu cəmiyyətə aşılayır. Dövlət başçısının milli ideallara bağlılığı özünü həm də üçrəngli bayrağımıza münasibətdə qabarıq göstərir. Üçrəngli bayrağımız Azərbaycanımızın müstəqilliyinin, xalqımızın milli mənsubiyyətinin, tarixinin, mənəvi dünyasının rəmzidir. Hər bir Azərbaycan vətəndaşı bayrağımıza ehtiram göstərir, bunu özünün müqəddəs borcu bilir. Azərbaycan əsgəri də Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən üçrəngli bayrağa and içir. Üçrəngli bayrağımız hər zaman əbədi olacaq, bütün dünyada Azərbaycan dövlətinin və xalqının imzasını qürurla təsdiqləyəcək. Onda hər birimiz Məhəmməd Hadinin bir misrasını bu şəkildə xatırlayacağıq: Var millətimin imzası imzalar içində...

Sonda tədbir iştirakçıları düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində xidmət edən əsgərlərlə görüşdülər, onların sosial-məişət şəraitləri ilə yaxından tanış oldular.

**Baş leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu"**

# Naxçıvan Qarnizonu qoşunlarında Dövlət Bayrağı Günü ilə əlaqədar tədbirlər keçirilib

*Naxçıvan Qarnizonu qoşunlarında 9 Noyabr Dövlət Bayrağı Günü silsilə tədbirlərlə qeyd edilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Bayrağımız qürurumuzdur" mövzusunda keçirilən tədbirdə Əlahiddə Ümumqoşun Ordu Komandanının müavini general-mayor Elman Orucov Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzi olan bayrağımızın 70 ildən sonra ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən 1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırıldığını qeyd edib. Vurğulanıb ki, bu gün üçrəngli, ay-ulduzlu bayrağımız Azərbaycan səmasında əbədi olaraq qürurla dalğalanır.

Çıxışlar zamanı Heydər Əliyev adına Hərbi Liseyin rəisi general-mayor Məhəmməd Həsənov bildirib ki, Vətənə sədaqətin və Hərbi anda sadiqliyin simvolu olan bayrağımız hər birimiz üçün qürur mənbəyidir.

Silsilə tədbirlərdə mədəniyyət kollektivləri, kursantlar, şagirdlər və "Nərgiz" uşaq bağçasının balaca fidanları ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

Sonda tədbirlərin fəal iştirakçıları mükafatlandırılıblar.

# Azərbaycan Ordusu miqyasında əməliyyat təlimi başladı



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusu miqyasında əməliyyat təlimi başladı.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, üç mərhələdə keçirilən təlimin əsas məqsədi şərti düşmənin təxribatlarının qarşısını almaqla hücum əməliyyatlarının aparılması zamanı qərargahların və qoşunların idarəetmə orqanlarının hazırlığının, eləcə də ümumqoşun birlikləri, HHQ, HDQ, Raket və Artilleriya Qoşunları, Xüsusi Təyinatlı Qüvvələr arasında qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsidir.



Əməliyyat təlimində qoşunların, dayanıqlı, fasiləsiz, operativ və gizli idarəedilməsi, qərargahların səhra idarəetmə məntəqələrinin fəaliyyətinin təkmilləşdirilməsi, videokonfranslar və fiberoptik kommunikasiya xətləri vasitəsi ilə sərəncam və əmrlərin taktiki və əməliyyat səviyyəsində sürətli ötürülməsi və şəraitə uyğun olaraq qərarların qəbul edilməsi üzrə vərdişlər məşq etdirilir.

# Dövlət Bayrağı Günü münasibətilə hərbi hissələrdə andiçmə mərasimi və "Açıq qapı" günü keçirildi



*Noyabrın 9-da Dövlət Bayrağı Günü münasibətilə hərbi hissələrdə gənc əsgərlərin andiçmə mərasimi və əsgər valideynləri, yaxınları üçün "Açıq qapı" günü təşkil olunub. Əsgərlərin valideynləri və yaxınları, ictimaiyyət nümayəndələri hərbi hissələrdə yaradılan məişət şəraiti ilə tanış olub, xidməti, inzibati binalara, əsgər yataqxanalarına və yeməkxanalarına baş çəkiblər. "Açıq qapı" günündə hərbi hissələrin komandanlığının valideynlərlə görüşləri keçirilib, onları maraqlandıran məsələlərin müzakirəsi aparılıb. Tədbirlərdə ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər təşkil olunub.*

Andiçmə mərasiminin başlanmasına dəqiqələr qalırdı. Şəxsi heyət meydanda yerini tutub. Çox keçmir ki, sıra meydanında canlanma yarandı. Gənc əsgərlərin Hərbi andı qəbul etmələrinə həsr olunmuş mərasim başlanır.

Hərbi hissənin döyüş bayrağı təntənəli surətdə meydana gətirildi. Bayrağı gətirənlərin qətiyyətli addımları tədbir iştirakçılarında iftixar dolu xoş duyğular oyatdı.

Gənc əsgərlər Hərbi and içməyə başladılar. Hərbi hissə komandirinin əmri ilə gənc əsgərlər sıradan çıxaraq nizami addımlarla meydana qoyulmuş masalara yaxınlaşdılar. Onların dalğa-dalğa ətrafa yayılan gur səslərində qələbə ahəngi vardı.

Gənc əsgərlər Hərbi andı qəbul etdilər.

Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev əlamətdar gün münasibəti ilə gənc əsgərləri təbrik edərək dedi ki, hörmətli mərasim iştirakçıları, hörmətli zabitlər, gizirlər və əsgərlər! Bu gün həm valideynlər, həm də hərbi hissənin şəxsi heyəti üçün yaddaqalan bir gündür. Bu gün bizim hər birimiz üçün ikiqat əlamətdardır. Bildiyiniz kimi, bu gün 9 Noyabr Dövlət Bayrağı Günüdür. Üçrəngli bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilib və qaldırılıb. İllər sonra isə bayrağımız 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Milli Məclisinin sessiyasında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Muxtar Respublikanın bayrağı kimi qaldırılıb. 5 fevral 1991-ci ildə isə üçrəngli bayrağımız Azərbaycan Respublikasının Ali Soveti tərəfindən dövlət rəmzi kimi təsdiq olunub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli Sərəncamı ilə Azərbaycanın üçrəngli bayrağının ilk dəfə qəbul edildiyi 9 noyabr (1918) tarixi Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi təsis edilib. 2010-cu ildən etibarən noyabrın 9-u ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd olunur. Belə tarixi və əlamətdar bir gündə gənc əsgərlər Hərbi andı qəbul etdilər. Bu əlamətdar gün münasibətilə valideynləri, əsgərləri təbrik edir və uğurlar arzulayıram. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrik və salamlarını da sizə çatdırıram. Müdafiə nazirinin təsdiq etdiyi müvafiq əmrə uyğun olaraq bu gün, həmçinin hərbi hissə və birləşmələrdə "Açıq qapı" günü də keçirilir. Tədbir başa çatdıqdan sonra valideynlər övladlarının yataqxanalarına, yeməkxanalarına baxa biləcəklər. Oğullarının hansı şəraitdə xidmət edəcəkləri ilə yaxından tanış olacaqlar. Əminəm ki, gənc əsgərlər içdikləri Hərbi anda xidmətlərinin sonunadək sadiq qalacaq, hərbi biliklərə dərindən yiyələnəcək, təlimlərdə silahların sirlərini mükəmməl öyrənəcəklər. Gün gələcək ki, bu gün sırada dayanan əsgərlər üçrəngli bayrağımızı Şuşada, Xankəndidə dalğalandıracaqlar.

Hörmətli tədbir iştirakçıları, əlamətdar gün münasibəti ilə bir daha sizləri təbrik edir, uğurlar arzulayıram.

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Ağcabədi rayon şöbəsinin sədri İsmayıl Məhərrəmov, general-mayor Mayis Bərxudarov, əsgər atası Elşən Quliyev və başqaları çıxışlarında gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik edərək, xidmətlərində uğurlar arzuladılar.

Gənc əsgərlər adından çıxış edən Elnur Məmmədov bildirdi ki, Hərbi anda xidmətimizin sonunadək sədaqətli qalacaq, silahların sirlərinə dərindən yiyələnəcək, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanacağıq.

Tədbirin sonunda şəxsi heyət orkestrin ifa etdiyi hərbi marş və vətənpərvərlik mahnılarının sədaları altında təntənəli addımlarla tribunanın önündən keçdi.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**



"N" hərbi hissəsində keçirilən tədbirdə ordu birləşməsinin komandanlığı, müharibə veteranları, ictimaiyyət nümayəndələri, əsgər valideynləri və yaxınları iştirak etdilər.

Nizami yerişlərlə sıra meydanına gələn gənc əsgərlər, ordu sıralarına daxil olaraq, Vətənimizə, dövlətimizə, dövlətçiliyimizə sadiq qalacaqlarına, ərazi bütövlüyümüzün və suverenliyimizin müdafiəsinə hər an hazır olacaqlarına and içdilər. Hərbi andı qəbul edən əsgərlər tribuna qarşısından təntənəli marşla keçdilər.

General-mayor Xəqani Cəbrayılov çıxış edərək Hərbi andı qəbul edən əsgərləri və onların valideynlərini təbrik etdi, əlamətdar gün münasibətilə onlara xoş arzularını ünvanladı. "Əziz əsgərlər, bu gün sizin həyatınızda ən əlamətdar günlərdən biridir. Azərbaycan Ordusunun sıralarına daxil olaraq Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacağınıza and içdiniz. Hərbi and ordumuzun hər bir zabit və əsgəri üçün Vətən qarşısında dönməz sədaqətin ifadəsidir, hətta ölüm təhlükəsi belə Azərbaycan əsgərinin içdiyi andı pozmağa məcbur etmək gücündə deyil. Sizə hərb işinə dərindən yiyələnməyi, komandir və rəislərin əmr və tapşırıqlarını vaxtında və sözsüz yerinə yetirməyi tövsiyə edirəm. İnanıram ki, Azərbaycan Respublikasının əsgəri adını yüksək tutaraq Hərbi anda sadiq qalacaq, əsgəri borcunuzu bundan sonra da layiqincə yerinə yetirəcəksiniz. Hörmətli valideynlər, övladlarınızın Hərbi and içməsi münasibətilə sizləri də təbrik edir, hamınıza göz aydınlığı verirəm. Onları Vətənə sədaqətli bir oğul kimi tərbiyə etdiyinizə görə sizə minnətdarlığımı bildirirəm. Övladlarınız doğma ordumuzun əsgərləri, Vətənimizin müdafiəçiləridirlər. Təlim dövründə onlara silah və texnikalardan, döyüş hazırlığından və digər hərbi fənlərdən dərslər keçiriləcək, övladlarınız torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşə biləcək, bacarıqlı, cəsur, qorxmaz əsgərlər kimi formalaşacaqlar. Sizi əmin edirik ki, övladlarınızın bacarıqlı əsgərlər və layiqli vətəndaşlar kimi formalaşması üçün əlimizdən gələni əsirgəməyəcəyik".

General-mayor Xəqani Cəbrayılov tədbir iştirakçılarını Dövlət Bayrağı Günü münasibətilə də səmimi qəlbdən təbrik edərək keçirilən "Açıq qapı" günlərinin mahiyyətindən danışdı. "Əziz valideynlər və tədbir iştirakçıları, Müdafiə nazirinin tarşırığına əsasən hərbi hissələrimizdə bu cür bayram tədbirlərinin, "Açıq qapı" günlərinin keçirilməsi ordumuzda artıq dəyərli bir ənənəyə çevrilərək, xalqla ordunun sıx birliyini təmin edir. Belə tədbirlərdə siz əsgərlər üçün yaradılan məişət şəraiti ilə yaxından tanış olursunuz. Əmin olursunuz ki, övladlarınızın uğurlu xidmət etməsi üçün hər cür şərait yaradılıb. Belə yüksək məişət şəraiti ölkə başçımız, Ali Baş Komandan cənab İlham Əliyevin ordumuza diqqət və qayğısının bariz nümunəsidir. Arzu edirəm ki, işğal altında olan torpaqlarımızı azad edib, üçrəngli bayrağımızı Qarabağda dalğalandıracağımız günün sevincini birgə yaşayaq."



Çıxış edənlər andiçmə və Dövlət Bayrağı Günü münasibətilə tədbir iştirakçılarını və Hərbi andı qəbul etmiş əsgərləri təbrik edərək şərəfli xidmətlərində uğurlar arzuladılar, ordumuza sonsuz güvəndiklərini vurğuladılar. "Hər birimiz təəssüflənirik ki, belə tədbirləri Qarabağ torpaqlarında qeyd edə bilmirik. Lakin əminliklə deyə bilərik ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə gündən-günə güc və qüdrətini artıran ordumuz torpaqlarımızı tezliklə işğaldan azad edəcək. Həmin gün işğaldan azad olunmuş ata-baba torpaqlarımızda üçrəngli bayrağımız dalğalanacaq və zəfər bayramını birgə qeyd edəcəyik".

Sonra tədbir iştirakçıları, valideynlər komandanlıqla birgə hərbi hissədə yaradılmış şəraitlə tanış oldular. Valideynlər və əsgərlərin yaxınları yataqxanaya, camaşırxanaya, yeməkxanaya və digər məişət otaqlarına baxdılar.

Əsgər yeməkxanasında övladları ilə birgə nahar etdilər. Qadın aşpazların hazırladıqları yeməklərin keyfiyyətindən və dadından razılıq üzlərdəki təbəssümdən hiss olunurdu. Arif Məmmədov, Aygün Mehdiyeva, Əli Abbasov, Sevinc Quliyeva, Səbuhi Abbasov, Rauf Musayev və digərləri övladları üçün yaradılmış yüksək məişət şəraitindən razı qaldıqlarını bildirərək Ali Baş Komandana və Müdafiə nazirinə təşəkkürlərini çatdırdılar.

Sonra Dövlət Bayrağı Günü münasibətilə hazırlanmış tort kəsildi. Tədbir bayram konserti ilə davam etdi.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

**(Ardı 5-ci səhifədə)**

# Dövlət Bayrağı Günü münasibətilə hərbi hissələrdə andiçmə mərasimi və "Açıq qapı" günü keçirildi

(Əvvəli 4-cü səhifədə)



Dövlət Bayrağı Günü münasibətilə hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü, eləcə də gənc əsgərlərin andiçmə mərasimi təşkil olundu.

Zabit Ədalət Hacıyev komandirə gənc əsgərlərin andiçmə mərasiminə hazır olmaları barədə məruzə etdi. Dövlət bayrağımız meydana gətirildi. Hərbi hissənin şəxsi heyətinin, əsgər yaxınlarının, qonaqların, ümumiyyətlə, hamının nəzəri əzəmətli bayrağımızda birləşdi. Bayaqdan bütün diqqətini toplayaraq nəvəsi Xəyyamı əsgərlərin arasında tanıya bilməyib sonra da "nə fərqi var, hamısı mənim balamdı, Azərbaycanımızın övladlarıdı" deyən ağsaqqal əsgər babası Müsaib Musayevin astaca dediyi "100 yaşlı dövlət bayrağım" sözlərindəki qürur məni bir daha da əmin etdi ki, dövlətini, torpağını bu qədər sevən valideynlərin böyütdüyü övladlar Vətənə sədaqətlə xidmət edəcəklər.

Gənc əsgərlərin və valideynlərin həyəcanla gözlədikləri andiçmə mərasimi başladı. Cəld və çevik hərəkətlərlə komandaları yerinə yetirən əsgərlər əllərini müqəddəs bayrağımıza, döyüş silahlarına qoyaraq Hərbi andı qəbul etdilər.

Nəzərlərim valideynlərə yönələrkən ata-anaların gözlərindən axan sevinc göz yaşlarını gördüm. Baxışlarından "inşallah, Ali Baş Komandanın əmri ilə işğalda olan torpaqlarımızı azad etmiş qalib əsgərlər olaraq geri dönərsiniz" arzusunu oxudum.



Zabit Siyavuş Mustafayev gənc əsgərləri bayram günündə Hərbi andı içmələri münasibətilə təbrik etdi: "Müasir müstəqil dövlətimizin memarı və yaradıcısı olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik olan Azərbaycan Ordusu bu gün dünyada ən müasir standartlara cavab verə biləcək səviyyədə formalaşmışdır. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Ali Baş Komandan cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən qoyulan tapşırıq, göstəriş və tövsiyələr Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən uğurla həyata keçirilir. Məhz onların uğurlu fəaliyyəti sayəsində ordumuzda bütün mühüm məsələlər planlı şəkildə, mərhələlərlə öz həllini tapır...".

Zabit üzünü gənc əsgərlərə tutaraq gələcəkdə döyüş hazırlığını artırmağı, vəzifə borclarının öhdəsindən bacarıqla gəlməyi və bu gün içdikləri anda sadiq qalmalarını tövsiyə etdi.

Zabit Ədalət Hacıyev də əsgərləri əlamətdar gün münasibətilə təbrik edərək, onlara nizam-intizamlı olmağı, komandirlərinin əmr və tapşırıqlarını sözsüz yerinə yetirməyi və Vətənimizi göz bəbəyi kimi qorumağı arzuladı. "Açıq qapı" gününün ictimaiyyətlə ordu arasında münasibətləri daha da səmimiləşdirən tədbir olduğunu bildirdi.

Gənc əsgər Nazim Abbasov və matros Şükür Əsgərli bu günün onların həyatının ən əlamətdar və məsuliyyətli günlərindən biri olduğunu bildirdilər. Hərbi andı qəbul edərək, Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacaqlarına, ərazi bütövlüyünü və müstəqilliyini qoruyacaqlarına söz verdilər. "...Vətənimiz Azərbaycanın üçrəngli bayrağının daim yüksəklərdə dalğalanması üçün canımızı və qanımızı əsirgəməyəcəyik".

Gənc əsgər valideynlərindən Şəfiqə Əzizova və Akif Əsgərov çıxış edərək övladlarının Vətən qarşısında borcunu yerinə yetirmək üçün and içmələrindən qürur duyduqlarını ifadə etdilər. Hər iki valideyn öz övladlarının timsalında bütün gənc əsgərlərə cansağlığı və hərbi xidmətlərində uğurlar arzuladılar.

Yasamal rayon Arif Hüseynzadə adına 20 nömrəli tam orta məktəb-liseyin şagirdi, Prezident təqaüdçüsü, müxtəlif müsabiqələrin laureatı Atilla Məmmədov vətənpərvərlik musiqiləri ilə çıxış etdi.

Valideynlər və ictimaiyyətin nümayəndələri hərbi hissəni ziyarət edərək şəxsi heyətin sosial-məişət şəraiti ilə yaxından tanış oldular, xidməti, inzibati binalara, eləcə də əsgər yataqxanasına və hamam-camaşırxanaya baş çəkdilər.

Hərbi hissə ilə tanışlıq zamanı zabitlər əsgər valideynlərinə və yaxınlarına xidmət şəraiti, qida rasionu barədə ətraflı məlumat verdilər, onları maraqlandıran sualları cavablandırdılar.

Tədbir əsgər yeməkxanasında süfrə arxasında başa çatdı.

Çöhrələrə təbəssüm, ürəklərə rahatlıq verən görüşün təəssüratlarını öyrənmək üçün əsgər süfrəsinə qonaq olub, xörəklərdən razı qaldıqları açıq-aşkar hiss olunan valideynlərin üzlərində razılıq, gözlərində aşıb-daşan sevinc gördüm. Səkinə Hacıyeva, Aynur Qurbanova, Ceyhun Mirzəyev, Aynur Muradova, Nəzirə İsmayılova, Ramin Hacıyev, Nəsib Quliyev, Fikrət Abdullayev, Bədəl Ələkbərov, Xanım Abdullayeva, Sevda Abbasova, Mansur Qasımov və başqaları dövlət başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

Sərin-sərin əsən mehin ağacların yarpaqlarını tərpətməyə gücü çatmır. Göy üzündə bircə əlçim də olsa bulud yoxdu. Çöl-çəmənin otları saralmasaydı, ağacların yarpaqlarına sarılıq düşməsəydi, elə bilərdin yaz fəslidi, payızın son ayında yazın ilk ayının ovqatı yaşanılır.

Hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin qarşısı qələbəlikdi. Baxışlarda kövrəklik qarışıq bir intizar görünür. Narahatlıqla nəzarət-buraxılış məntəqəsinin o üzünə boylanmaq istəyənlərin özü də bilir ki, bu kövrəkliyin də, bu intizarın da sonuna dəqiqələr qalıb. Bilsə də ürəyinə hökm etməyi bacarmır; elə bilirlər ki, vaxt ləng ötüşür.

Qələbəlikdə bir nizamsızlıq da var. Kimi narahatlıqla gəzişir, kimi bir həmsöhbət ümidiylə var-gəl edir, kimi xəyallarının cazibəsindədi. Bu qələbəlik də, qələbəliyin nizamsızlığı da bu günün mahiyyətinə görədi - gənc əsgərlərin andiçmə mərasimidi, andiçmə mərasimi "Açıq qapı" günü ilə tamamlanacaq. Belə tədbirlərdə ictimaiyyətin, ictimai təşkilatların nümayəndələri də iştirak edir, bu ordu-cəmiyyət münasibətlərinin mənəvi bağlılığını daha da möhkəmləndirir, ictimaiyyətin orduya inamı, güvənci daha da artır, ordu ictimaiyyətə daha dərin duyğularla arxalanır.

Valideynlərin incə kövrəkliyi də, o kövrəklikdən çətinliklə seçilən intizar da anlaşılandı, bu anları yaşamağın intizarında olanlar da var: gənc əsgər Hərbi and içəcək - bu, hərbi xidmətdə də, hərbi xidmətdən sonra mülki həyatda da qürurla, şükranlıqla, sevgilərlə yaşadılır. Bu, xarakterinə görə əlamətdardır. Bir azdan gənc əsgərlər hərbi hissənin zabitlərinin, əsgərlərinin, tədbirə gəlmiş valideynlərin, ictimaiyyətin nümayəndələrinin iştirak etdiyi təntənədə Hərbi and içəcək - Vətənə, dövlətə, dövlətçiliyə sədaqətli olacağına, Hərbi Nizamnamələrin tələblərinə ciddi əməl edəcəyinə, komandirlərinin, zabitlərin əmr və tələblərini, göstərişlərini sözsüz, məsuliyyətlə, vaxtında yerinə yetirəcəyinə.

Tədbir bir azdan başlayacaq. Hansı duyğuların təsiriylə isə iki ananın söhbətinə ayaq saxlayıram. Bir azdan öyrənəcəm ki, Səmayə Qurbanova Qazax rayonundan gəlib, oğlu 6 aydı hərbi xidmətdədi, burada tanış olduğu gənc əsgər anasına - Sədaqət Həsənovaya deyirdi:

- ... Oğlum burada xidmət edir. "Açıq qapı" gününə gəlmişəm. Komandirindən xahiş edəcəm ki, valideynlərə belə şərait yaradıldığına görə bizim adımızdan Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkür etsin, - həmsöhbətinə gözdolusu baxır. - Andiçmədə doyunca sevinməyə macalın olmur. Necə gözəl anlar olduğunu az sonra dərk edirsən. Bəlkə də ilk baxışda onu hərbi paltarda tanımayacaqsan. Hərbi



and içəndən sonra sənə elə gələcək ki, oğlun qısa müddətdə boy atıb. Fərəhdən ürəyin dağa dönəcək...

Tədbir başladı.

Zabit Babək Səmidli son illərdə ordumuzda həyata keçirilən islahatlardan, ordu quruculuğundan, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsinin yüksəlməsindən söz açaraq dedi:

- 2016-cı ilin Aprel döyüşləri, qazanılan qələbələr təsdiqlədi ki, Azərbaycan Ordusu güclüdür, torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bu qadirliyi Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradlar da təsdiqlədi. Ordumuzun şəxsi heyəti də, ictimaiyyət də əmindir ki, Böyük Qələbənin paradı daha möhtəşəm olacaq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə həll edilməsə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Soçi şəhərində ictimailəşdirdiyi bəyanat - "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" - döyüş əmrilə tamamlanacaqdır.

Zabit çıxışının sonunda dedi:

- Bu əlamətdar, yadda qalacaq gün münasibətilə gənc əsgərləri də, onların valideynlərini də, əzizlərini də təbrik edirəm. İnanıram ki, bu gün Hərbi and içən əsgərlər də nümunəvi xidmət edəcəklər, zabitlərin əmr və tapşırıqlarını məsuliyyətlə yerinə yetirəcəklər.

Valideynlər adından Çoşqun Paşalı danışaraq dedi:

- Bu gün Hərbi and içən əsgərlərin də, xidmət edən əsgərlərin də ataları ya Ermənistanın elan etmədən başladığı müharibənin iştirakçısı olub, ya da müstəqil Azərbaycan Ordusunda xidmət ediblər. Yəni, bu günün əsgərlərinin ataları ordumuzun 25-30 il əvvəlki səviyyəsini də görüblər. O dövrlə bu dövrü, o dövrdəki şəraitlə bu dövrdəki şəraiti, o dövrdəki silahlanmayla bu dövrdəki silahlanmanı müqayisə etmək mümkün deyil. Əziz oğullarım, siz güclü, qüdrətli bir orduda xidmət edirsiniz. Dövlət sizə hər cür yüksək şərait yaradıb. İnanıram ki, siz də Hərbi Nizamnamələrin tələblərinə əməl edəcəksiniz. Ona da inanıram ki, biz sizin xidmətinizlə qürurlanacağıq, əsgər atası adıyla qürurlandığımız qədər qürurlanacağıq...

Gənc əsgərlər adından çıxış edən Əli Sultanlı dedi:

- Çağırış yaşlarında hər birimiz hərbi xidmətlə yaxından maraqlanırdıq. Hərbi xidmətə başlayanda bildik ki, tərxis olunanların söhbətləri, xatirələri bizi hərbi xidmətə hazırlayırmış. Gün gələcək, bizim söhbətlərimiz, xatirələrimiz çağırışçıları hərbi xidmətə hazırlayacaq. Komandirlərimizi, valideynlərimizi əmin edirəm ki, Hərbi Nizamnamələrin tələblərinə ciddi əməl edəcək, əmrləri, tapşırıqları məsuliyyətlə, sözsüz, vaxtında yerinə yetirəcəyik...

Gənc əsgərlərin Hərbi andiçmə mərasimi təntənəli keçidlə tamamlandı, "Açıq qapı" günü ilə davam etdi...

...Payızın son ayında yazın ilk aylarının ovqatı var...

**Rəşid HÜSEYNOV,
"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Orduda "Ən yaxşı mühəndis-istehkam və mühəndis-kəşfiyyat manqası" adı uğrunda yarış keçirilib



*Əlahiddə Ümumqoşun Orduda "Ən yaxşı mühəndis-istehkam və mühəndis-kəşfiyyat manqası" adı uğrunda yarış keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarışa cəlb olunan mühəndis silahlanma vasitələrinə baxılıb və şəxsi heyətə yarışın məqsədi çatdırılıb.

Yarışda ixtisas hazırlığından şərti düşmənin ön xəttinin qarşısında mina-partlayış maneələrinin kəşfiyyatının aparılması və əl üsulu ilə həmin maneələrdən keçidlərin açılması praktiki yerinə yetirilib.

Sonra yarış iştirakçılarından test üsulu ilə məqbullar götürülüb və qaliblər mükafatlandırılıb.



# Naxçıvan Qarnizonu qoşunlarında növbəti snayper hazırlığı kursu uğurla başa çatıb

*Naxçıvan Qarnizonu qoşunlarında növbəti snayper hazırlığı kursunun uğurla başa çatması münasibətilə mərasim keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimdə Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik Tehran Mənsimov bildirib ki, Türkiyə Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun təlimatçı qismində iştirak etdiyi kursda hədəfləri zərgər dəqiqliyi ilə məhv etməyi bacaran peşəkar snayperlər yetişdirilib.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu Abdullah Açık dostluq və qardaşlığı özündə əks etdirən kursda qazanılan nailiyyətlərdən danışıb.

Mərasimdə məzunlar adından çıxış edən kurs birincisi Rüfət Tağızadə ən çətin döyüş tapşırıqlarını uğurla yerinə yetirməyə hazır olduqlarını bildirib.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Kurs birincisi tərəfindən xatirə lövhəsinə buraxılış emblemi vurulub və məzunlarla xatirə şəkli çəkdirilib.

# Dövlət Bayrağı Günündə Naxçıvan Qarnizonu qoşunlarında andiçmə mərasimləri keçirilib

9 Noyabr Dövlət Bayrağı Günündə Naxçıvan Qarnizonu qoşunlarında andiçmə mərasimləri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Orduda keçirilən mərasimdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra gənc əsgərlər Vətənə sədaqət andı içiblər.

Mərasimdə çıxış edənlər gənc əsgərləri təbrik ediblər və əsgərlər də Vətənə sadiq olacaqlarına söz veriblər.

Çıxışların ardından general-mayor Teymur Eyyubov Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdırıb. Bildirilib ki, Hərbi anda sadiq olmaq hər bir əsgər üçün şərəf, namus və vicdan məsələsidir. Məhz buna görə də başı üzərində Azərbaycan bayrağı dalğalanan əsgərlərimizin şücaəti hər birimizi daha da qürurlandırır.

Təbrik oxunduqdan sonra şəxsi heyətin təntənəli keçidi olub.

# "Modern Diplomacy" portalında Ermənistanda faşistlərin və terrorçuların qəhrəmanlaşdırılmasına dair məqalə yayılıb

Məşhur "Modern Diplomacy" portalında Ermənistanda Qaregin Njde də daxil olmaqla faşist və ya terrorist ermənilərin adlarının əbədiləşdirilməsi, heykəllərinin ucadılması və beləliklə, onların qəhrəmanlaşdırılması haqqında məqalə yayılıb. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin idarə heyətinin sədri Fərid Şəfiyevin və mərkəzin eksperti Vasif Hüseynovun həmmüəllifi olduqları məqalədə irqçi ideologiyaları gücləndirən və cəmiyyətə təhlükəli mesajlar verən bu cür əməllər tənqid olunur.

Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, müəlliflər ziddiyyətli tarixi şəxslərin, yerli əhaliyə amansız qəddarlıq nümayiş etdirmiş müstəmləkə liderlərinin, faşistlərlə əlbir olub günahsız insanların qətlinə səbəb olmuş müharibə cinayətkarlarının və s. adlarının bu və ya digər şəkildə əbədiləşdirilməsinə qarşı dünyanın bir çox ölkələrində geniş vüsət almış etiraz aksiyalarına diqqət çəkirlər. Bildirilir ki, bu heykəllər keçmişi tərənnüm edir, ziddiyyətli şəxsləri və ya siyasəti yaddaşlarda canlı saxlayır, insanların düşüncələrinə və həyata baxışlarına xüsusi şüuraltı təsir etməklə həm də indiki zaman və gələcək üçün mesajlar ötürür.

Məqalədə qeyd edilir ki, baxmayaraq bu mübahisələr Cənubi Qafqaz üçün yeni deyil, lakin MDB-nin Aşqabaddakı Sammitində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından sonra yenidən aktuallıq qazanıb və geniş müzakirələrə səbəb olub. Həmin Sammitdə Prezident İlham Əliyev Ermənistanda nasistlərlə birlikdə minlərlə insanın qətlində iştirak etmiş Qaregin Njdeyə paytaxt Yerevanda abidə qoyulmasını sərt tənqid edib və bunu müharibə qurbanlarının xatirəsinə hörmətsizlik kimi qiymətləndirib.

Müəlliflər Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan Prezidentinin tənqidindən sonra utanmadan Njdeni müdafiə etməsini pisləyiblər. Məqalədə ermənilərin ali irq olduğunu iddia edən tseghakronism adlı təhlükəli ideologiyanın yaradıcısı olan Njdenin qəhrəmanlaşdırılması və müasir dövrdə onun irqçi düşüncələrinin yaşadılması və yayılması Cənubi Qafqazda sülh üçün ciddi bir mane kimi qiymətləndirilib.

Məqalədə təəssüflə qeyd olunur ki, Qaregin Njde ermənilər tərəfindən xatirəsi əbədiləşdirilən yeganə müharibə cinayətkarı deyil. Ermənilər, həmçinin dünyanın müxtəlif yerlərində türk diplomatlarını qətlə yetirən ASALA terror təşkilatının liderlərinə də ölkənin müxtəlif yerlərində abidələr ucaldıb və onları qəhrəman kimi təqdim edib. Məsələn, ASALA-nın aparıcı fiqurlarından olan Monte Melkonyana nəinki abidələr qoyulub, həmçinin onun adı təhsil müəssisələrinə və fondlara verilib və beləliklə, yeni nəslin onu tanımasına və rəğbət bəsləməsinə şərait yaradılıb.

Məqalədə Gürcüstanın Cavaxetiya bölgəsində Xocalı qətliamında iştirak etmiş erməni hərbçi Mixail Avagyana abidə qoyulması da tənqid olunub. Ekspertlər diqqəti xüsusi olaraq o fakta çəkir ki, bu abidənin sırf azərbaycanlıların matəm günü - 20 Yanvarda açılması ermənilərin xalqımıza qarşı kin və nifrətinin göstəricisidir.

# Əlahiddə Ümumqoşun Orduda "Ən yaxşı tank əleyhinə batareya" adı uğrunda yarış keçirilib



*Əlahiddə Ümumqoşun Orduda "Ən yaxşı tank əleyhinə batareya" adı uğrunda yarış keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, fərdi və qrup halında normativlərin götürüldüyü yarışda tank təhlükəli istiqamətdə açılma hədlərinin tutulması, şərti düşmənin hərəkətli və hərəkətsiz hədəflərinin məhv edilməsi tapşırıqları yerinə yetirilib.

Yarışın ümumi nəticələrinə əsasən, özüyeriyən tank əleyhinə raket kompleksi batareyası birinci olub.

# "Türkiyə bundan sonra da Azərbaycanın haqq işini müdafiə edəcək"

*İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 24-cü iclasının yekun sənədində Azərbaycanın maraqlarına uyğun iki maddənin salınmasının bu günə təsadüf etməsi xüsusilə önəmlidir. Çünki bu gün Azərbaycanın Dövlət Bayrağı Günüdür. Azərbaycanın bu gözəl bayram münasibətilə bir daha səmimi qəlbdən təbrik edirəm. Bu bayraq heç zaman enməyəcəkdir.*

Bu fikirləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu İƏT-in Nazirlər Şurasının Antalyada keçirilən 24-cü iclasının yekunlarını AZƏRTAC-a şərh edərkən söyləyib.

Nazir diqqətə çatdırıb ki, bugünkü iclasın yekun sənədində Ermənistanın bölgədə iqtisadi inkişafa maneə törətməsi, xüsusilə də Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməklə regionun iqtisadi potensialının azalmasına səbəb olması barədə iki bənd var. Türkiyə bundan sonra da beynəlxalq səviyyədə Azərbaycanın haqq işini müdafiə edəcəkdir.

Uydurma "erməni soyqırımı" ilə bağlı qəbul olunan qərarlar Türkiyənin Suriyada həyata keçirdiyi "Sülh çeşməsi" antiterror əməliyyatını pozmaq üçün ortaya atılmış təzyiq vasitəsidir. Həqiqi soyqırımı isə ermənilər tərəfindən yaxın tariximizdə Xocalıda törədilib.

Nazir diqqətə çatdırıb ki, Xocalıda qaça bilməyən hər kəs ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilib. Orada 613 günahsız azərbaycanlı soydaşımız, o cümlədən 106 qadın, 83 uşaq öldürülüb.

Nazir Mövlud Çavuşoğlu bildirib ki, gerçək soyqırımı axtaranlar YPG-PKK terror təşkilatlarının İraq və Suriyada törətdikləri insanlıq əleyhinə cinayətlərə baxsalar yaxşıdır.

*Ordu və cəmiyyət*

# "Dörd əsgər anasıyam!"

*Vətən hər birimizin qüruru, vüqarı, əbədi səcdəgahıdır. Vətənini sevmək "Mən vətənpərvərəm" deməklə bitmir. Vətəni sevmək onu hüdudlandıran torpağı, xalqı sevmək deməkdir. Vətənin azadlığı, istiqlaliyyəti müqəddəsdir, ucadır. Bu sevgi hər birimizə uşaq vaxtlarından aşılanır. Valideynlərimiz bizə Vətən torpaqlarının müqəddəs olduğunu öyrədir. Bu sevgi ordu sıralarında daha da qüvvətlənir və bunu yox edəcək bir qüvvə mövcud deyil. Vətənpərvərlik yalnız döyüşlərdə nümayiş olunmur. Cəmiyyətdə tutduğu mövqeyindən, mənsubiyyətindən asılı olmayaraq, hər kəs Vətənimizə olan məhəbbətini, bağlılığını üzərinə düşən vəzifəni vicdanla yerinə yetirməklə göstərməlidir.*



Noyabrın 9-da Dövlət Bayrağı Günü münasibətilə keçirilən "Açıq qapı" günündə Azərbaycan Ordusunun hərbi hissələrindən birində övladlarını Vətənə sonsuz məhəbbətlə böyütmüş əsgər anası Reyhan Əsədovanı tanıdım. Reyhan ana dörd oğul anasıdır. "Hərbi xidmət hər bir gəncin həyatında mühüm rol oynayır. Bu gün ən xoşbəxt günlərimdən biridir. Dördüncü oğlum Sərvan Vətənimizə və xalqımıza sədaqət andı içdi. Mənim kimi yüzlərlə əsgər anası bu xoşbəxt anları səbirsizliklə gözləyib. Digər üç oğlum düşmənlə təmas xəttində yerləşən hərbi hissələrdə xidmət ediblər. Hər birinin andiçmə mərasimi bütün təfərrüatları ilə yaddaşıma həkk olunub. Onların doğma Azərbaycanımıza müqəddəs borcunu verdiyi üçün qürurlanıram. Övladlarıma "Vətəni sevmək onun torpağını, daşını, havasını, suyunu sevməkdir" deyirdim. Sərvan da ana öyüdünü oğul məsuliyyətilə yerinə yetirəcək."

Həyat yoldaşının zamanında könüllü olaraq ordu sıralarına qatıldığını vurğulayan əsgər anası müstəqilliyimizin və ölkəmizin ərazi bütövlüyünün qarantı olan ordumuzun qüdrətinin artmasının yaxından şahidi olduğunu dedi. "Ali Baş Komandan İlham Əliyevin rəhbərliyiylə ordu quruculuğunda həyata keçirilənlərin nəticəsində ordumuzun döyüş qabiliyyəti günbəgün güclənir, maddi-texniki bazası möhkəmlənir, hərbi qulluqçuların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür", - Reyhan Əsədova söhbətinə davam etdi. - "Açıq qapı" günündə əsgər yataqxanası, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana, qazanxana kompleksi və digər obyektlərlə yaxından tanış olduq. Hərbi hissədə övladlarımızın müasir standartlara cavab verən yataqxanalarda qalması və istirahəti üçün hərtərəfli şərait yaradılıb. Əsgər yeməkxanasında qadın aşpazların çalışması sevindirici haldır. Bu, əsgərlərimizə bişirilən yeməklərin keyfiyyətini artırmaqla yanaşı, onlara ana qayğısını da hiss etdirir.

Ordumuzun qüdrətindən, əsgərlərimiz üçün yaradılan şəraitdən danışan R.Əsədova bildirdi ki, məhz aparılan uğurlu siyasətin nəticəsi olaraq, ordumuz Cənubi Qafqazda ən güclü və nizami hərbi qurumdur.

Çox sevinirəm ki, oğlum əsgərdir, həm də müasir standartlara cavab verən ordunun əsgəridir, - əsgər anası dedi. - Sərvanın timsalında bütün əsgərlərimizə xidmətlərində nizam-intizamlı olmalarını, komandirlərin əmr və tapşırıqlarını dəqiq və vaxtında yerinə yetirmələrini tövsiyə edirəm. Hərbin sirlərinə dərindən yiyələnsinlər, asudə vaxtlarından səmərəli istifadə etsinlər ki, peşəkar hərbçi kimi formalaşa bilsinlər. Ən böyük arzum odur ki, Vətənin keşiyində duran igid oğullarımız tezliklə Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə xalqımıza Qələbə sevinci yaşatsınlar.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# ADS avtomatı



Rusiyada istehsal olunan ADS silahı unikal, orta, ikili silahdır. Bu silah dünyada ilk silahdır ki, suyun altında atəş aça bilir. Özündə atıcı-qumbaraatan kompleksini birləşdirir və bul-pap sxemi əsasında hazırlanıb. APS və AK-74 avtomatlarını əvəz edə bilir. Son vaxtlara qədər silahın modeli məxfi saxlanılırdı, onu ancaq şəkillərdə görmək olardı. İlk dəfə bu silah 2013-cü ildə Moskvada "İnterpolitex" və Sankt-Peterburqda "Hərbi dəniz salonu" sərgilərində geniş kütlə qarşısında nümayiş olunub. ADS avtomatı Rusiya Federasiyasının Müdafiə Nazirliyinin silahlanmasına rəsmən qəbul edilib. Silahdan hərbi dəniz qüvvələrinin xüsusi təyinatlı bölmələri və güc bəndlər istifadə edirlər. Bu unikal silah dalğıclar üçün çox etibarlı və keyfiyyətlidir.

ADS avtomatının əsas üstünlüyü onun eyni ölçülü güllələrdən istifadə etməsi, və həm suda, həm də quruda istifadə olunmasıdır. Silahın darağı standart Kalaşnikov silahı ilə eyni ölçüdədir. Belə ki, suda istifadə etmək üçün silahın 5.45 millimetrlik avtomatik darağını dəyişmək kifayətdir.

ADS avtomatının işləmə qabiliyyəti xüsusi əməliyyatların iştirakçısından asılıdır.

Avtomatda su altında atəş açmaq üçün 5.45x39 PSP, PSP-U güllələrindən, quruda isə 5.45x39 7N6, 7N10, 7N22 mm-lik güllələrindən istifadə edilir. Silahın uzunluğu 660 mm, lüləsinin uzunluğu 415 mm-dir, maqazini 30 patrondan ibarətdir. Atəş tempi dəqiqədə 600-800 atışdır.

Döyüşlərdə ADS avtomatından BOQ-25 tipli 40 mm-lik qumbaralarla artilleriya atəşi də açmaq mümkündür. Buna ADS avtomatının lüləsinin (gövdəsinin) altındakı 400



metrlik məsafədə yerləşən düşmən hədəfi məhv etməyə qadir olan qumbaraatan imkan verir.

Silahın korpusuna əlavə cihazlar da quraşdırmaq olar. Bu cihazlara taktiki fənər, nişangah, lazerli hədəf göstərici, səssiz atəş açmaq üçün qurğu aiddir. Silah gecəgörmə cihazıyla da təchiz olunub.

Məxfi əməliyyatlarda istifadə etmək üçün ADS avtomatında bir əlavə də edilib. Bu xüsusi kanalda təktək atəş açmaq üçün müvəqqəti olaraq giliz saxlanılıb. Bu da tapşırıqları yerinə yetirərkən atəş açma zamanı heç bir iz qoymur. Silahdan atılan gilizdən zədələnməmək üçün həm sağ, həm də sol əllə atəş açmaq mümkündür.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədə "Doğu Akdeniz-2019" hərbi dəvət təlimləri keçirilir



Türkiyənin ev sahibliyi etdiyi Türk Hərbi Dəniz Qüvvələri Komandanlığı tərəfindən keçirilən "Doğu Akdeniz-2019" dəvət təlimləri başlayıb.

Təlimlərdə 15 ölkədən 47 gəmi və 4 min 700 hərbi personal iştirak edir.

Əsas məqsədi dost və müttəfiq ölkələr arasında əlaqələri daha da yaxşılaşdırmaq olan təlimlərdə Türkiyə Hərbi Dəniz Qüvvələri Komandanlığının 31 döyüş gəmisi, dəniz polisi təyyarələri, pilotsuz uçuş aparatları, Sahil Mühafizə Xidmətlərinə aid helikopterlər, hərbi təyyarələr və bir sıra digər texnika nümayiş etdirilir.

Türk millətinin ulu öndəri Mustafa Kamal Atatürkün vəfatının 81-ci ildönümü münasibətilə reallaşan təlimlərdə iştirak edən yerli və xarici gəmilərin bayraqları yarıyadək endirilib.

### Ukrayna Müdafiə naziri: Ukraynada həqiqi hərbi xidmətə çağırış formatı ləğv ediləcək



Ukraynada həqiqi hərbi xidmətə çağırış formatı ləğv ediləcək.

Bu bəyanatla 1+1 telekanalına müsahibəsində Ukraynanın Müdafiə naziri Andrey Zaqorodnyuk çıxış edib. Nazirin sözlərinə görə, Ukrayna dövləti NATO standartlarına uyğun olaraq peşəkar ordu sisteminə keçidi nəzərdən keçirir.

"Həqiqi hərbi xidmətə çağırışın ləğv edilməsi əsas hədəfimizdir. Ancaq peşəkar ordunun yaradılması sisteminə keçid tez bir müddətdə mümkün deyil, buna tədricən keçiriləcək", - deyə nazir əlavə edib.

Onun sözlərinə görə, mövcud şəraitdə müqavilələ ordunun formalaşmasına keçid olduqca realdır. O, həmçinin qeyd edib ki, Silahlı Qüvvələrin qurulması sistemi hərbçilərə əsaslanmalıdır.

### İran yeni hərbi maşınını təqdim edib



İranın hərbi sənaye kompleksi istehsal etdiyi yeni hərbi yük avtomobilini təqdim edib.

İran ordusunun baş qərargah rəisi general Məhəmməd Baqerinin iştirakı ilə "Kiyan 700" tipli tank daşıyan maşın piyada qoşunlarının istifadəsinə verilib.

Təqdimat mərasimində qeyd olunub ki, yeni maşın tam olaraq İran istehsalıdır. Bu maşın 17 min 700 kiloqram yükgötürmə qabiliyyətinə malikdir və biri 60 ton olmaqla iki tankı uzaq məsafəyə daşıya bilər.

### "Sülh çeşməsi" antiterror əməliyyatı zamanı 331 ədəd mina və 891 partlayıcı maddə zərərsizləşdirilib



Türkiyə Silahlı Qüvvələrinin Suriya ərazisində "Sülh çeşməsi" antiterror əməliyyatı apardığı bölgədə bu günədək terrorçular tərəfindən qoyulmuş 331 ədəd mina və süni yolla hazırlanmış 891 partlayıcı maddə zərərsizləşdirilib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib.

Məlumatda PKK və PYD terrorçuları tərəfindən yaşayış əraziləri, yollar, infrastruktur obyektlərinə yerləşdirilmiş partlayıcı maddələrin Türk Silahlı Qüvvələri tərəfindən zərərsizləşdirildiyi bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbçilərin idman nailiyyətləri

*Azərbaycanda bütün sahələrə göstərilən yüksək qayğının nəticəsidir ki, bu gün respublikamızda idmana böyük maraq və diqqət var. Hər sahədə olduğu kimi, Vətənimizin müdafiəsində duran hərbi qulluqçularımız arasında da dövlətimizin idman şərəfini yüksəldən idmançılar az deyil. Ordu sıralarında xidmət edən yüzlərlə hərbi qulluqçu hərbi xidməti ilə yanaşı, idman fəaliyyətini də yüksək səviyyədə davam etdirir. Ordu idmanının inkişafına göstərilən qayğının nəticəsində Azərbaycan idmançıları beynəlxalq idman arenalarında yeni-yeni uğurlar əldə edirlər. Bu nailiyyətlər ordumuzun qüdrətini bir daha sübut edir, əsgərlərimizin fiziki sağlamlığına dövlətimiz tərəfindən xüsusi qayğı ilə yanaşıldığını göstərir. Bu gün hərbçilərimizin həm gündəlik, həm də peşəkar idman fəaliyyəti ilə məşğul olmaları üçün bütün bölmələrimizdə yüksək şərait yaradılıb.*

"N" hərbi hissəsində ezamiyyətdə olarkən Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunda keçirilən idman birinciliklərində uğur qazanmış hərbi qulluqçuları tanıdım. Polkovnik-leytenant Elman Hadıyev qeyd etdi ki, bugünkü gündə hərbçilərin idmanla peşəkar səviyyədə məşğul olmaları üçün ordumuzda hər cür şərait yaradılıb, hərbi şəhərciklərimiz müasir idman avadanlıqları ilə təmin olunub. "Şəxsi heyətin gündəlik fəaliyyətindən danışdıqda fiziki hazırlıq saatlarını mütləq qeyd etməliyik. Fiziki hazırlıq həm döyüş qabiliyyətinin artırılmasına, həm də sağlamlığın möhkəmləndirilməsinə istiqamətlənmiş fəaliyyət prosesidir. İdmanla çox məşğul olmaq möhkəm, güclü və sağlam olmaqdır. Yüksək fiziki hazırlıq döyüş qabiliyyətinə də müsbət təsir göstərir. İdmanla məşğul olan hərbi qulluqçu dözümlü, cəsur olur, həm də döyüş tapşırıqlarını daha çevik və dəqiq yerinə yetirir. Bu da döyüş qabiliyyətinin artırılmasında fiziki hazırlığın önəmini bir daha göstərir. Buna görə də bu sahə daim diqqət mərkəzində saxlanılır, şəxsi heyətin idmana marağının artması istiqamətində müxtəlif işlər görülür. Müxtəlif idman növləri üzrə yarışlar, birinciliklər, kütləvi-idman tədbirləri keçirilir". Zabit onu da bildirdi ki, hərbçilərin idmanla peşəkar səviyyədə məşğul olması üçün Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubu (MOİK) da fəaliyyət göstərir. İdman Klubunda peşəkar və təcrübəli məşqçilər tərəfindən hazırlanan hərbçi-idmançıların müxtəlif beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil etdiyini dedi.



Sonra polkovnik-leytenant Elman Hadıyev il ərzində Azərbaycan Ordusunda keçirilən birinciliklərdə uğur qazanan idmançıları təqdim etdi. İlk həmsöhbətim kiçik çavuş Mübariz Balakişizadə oldu. Altı ildən çoxdur ordu sıralarında xidmət edən hərbçi daşqaldırma üzrə dörd dəfə Ordu Birinciliyinin qalibi olub. Uşaqlıqdan bu idman növü ilə məşğul olan Mübariz ordu sıralarında xidmətə başladıqdan sonra da idman fəaliyyətini davam etdirib. "İdmana uşaq yaşlarımdan həvəsli olmuşam. Hər zaman daha yaxşısına nail olmağı qarşıma məqsəd qoymuşam. Bunun üçün özümə inanmışam və əzmkarlıqla məşq etmişəm. Sonuncu dəfə bu il ordu birinciliyində 95 kq çəkidə mübarizə apardım. Bu çəkidə daha 13 nəfər gücünü sınadı. Lakin finalda bütün rəqiblərimi qabaqlayaraq hər qolda 80 kq daşı qaldırdım. Bu nəticə ilə birinciliyin qalibi oldum. Bu qələbəm məndə araxayınlıq yaratmır. Yenə də məşqlərimi fasiləsiz davam etdirirəm. Növbəti birinciliyə tam qüvvəmlə hazırlaşıram, oradan da qələbə ilə qayıtmaq arzusundayam. Onu da qeyd edim ki, bölməmizdə idmanla məşğul olmaq üçün hər cür şərait yaradılıb. Həmçinin məşqçi komandanlıq da öz qayğı və diqqətini bizdən əsirgəmir, qələbələrimizi yüksək qiymətləndirir."

Çavuş Cavidan Əlizadə hərbi qulluqçular arasında hərbi beşnövçülüyün və daşqaldırma üzrə birinciliyin qalibi olub. Özü haqqında danışan Cavidan idmanla məşğul olmasında və uğur qazanmasında atasının rolunu xüsusi vurğuladı. "Atam idmanın güləş növü ilə məşğul olub. Həmçinin məşqçi kimi də fəaliyyət göstərib. Uşaqlığım atamın yanında, onun məşqlərinə, yarışlarına baxmaqla keçib. İdmana həvəsim də elə o vaxtlardan yaranıb. Artıq altı yaşımda güləş üzrə yarışlara qatılırdım. Respublika üzrə bir neçə dəfə qalib olmuşam. Beş ildən çoxdur ordu sıralarında xidmət edirəm. Hərbi xidmətimlə yanaşı, idmanla da mütəmadi məşğul oluram. İdman həm döyüş hazırlığımıza müsbət təsir edir, həm də sağlamlığımızı, möhkəmliyimizi artırır. Hərbçi kimi də idman sahəsində nailiyyətlərim oldu. Bu il keçirilən daşqaldırma üzrə ordu birinciliyində qalib oldum. İdmanın bu növü üzrə bir neçə dəfə birinciliyin qalibi olmuşam. Bu il ilk dəfə olaraq hərbi beşnövçülük üzrə də nailiyyət qazandım. Zəhmətimin bəhrəsini gördükcə daha da həvəslənirəm. Artıq beynəlxalq idman arenasında ölkəmizi və ordumuzu təmsil etməyi qarşıma məqsəd qoymuşam."

Növbəti həmsöhbətim gizir Habil Vəliyev idmanın daş qaldırma növü üzrə dəfələrlə nailiyyət qazanıb. O əkiz qardaşı Kamillə birlikdə uşaqlıqdan idmanla məşğul olduğunu bildirdi. Onun da hərbçi olduğunu dedi. "Hər işdə olduğu kimi, idmana da Kamillə birlikdə başlamışıq. Uzun illər idmanın güləş növü ilə məşğul olmuşuq. Ordu sıralarında xidmətə başladıqdan sonra idmanın daşqaldırma növü ilə məşğul olduq. İndi də qardaşımla həm eyni bölmədə xidmət edir, həm də birlikdə məşq edirik. Ordu birinciliyində daşqaldırma üzrə dəfələrlə nailiyyətlərimiz olub. Qarşıdan növbəti birincilik gəlir. Səylə və var qüvvəmizlə məşqlər edirik. Hədəfimiz qalib gələrək bölməmizə medal və kubokla qayıtmaqdır. Bununla bərabər, hər birimiz yaxşı bilirik ki, qarşımızda duran əsas vəzifə torpaqlarımızın işğaldan azad olunması üçün döyüş əmrinə hazır olmaqdır. İdman fəaliyyətimiz, fiziki gücümüzün artırılması da məhz buna istiqamətlənib. Biz əsl gücümüzü döyüş meydanında düşmən üzərində göstərəcəyik. Ali Baş Komandanımızın döyüş əmri ilə düşməni məhv etməyə daim hazırıq."

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan sumoçusu Avropa kuboku turnirində qızıl medal qazanıb



Azərbaycan idmançısı Camal Feyziyev Rusiyanın Dzerjinsk şəhərində sumo üzrə Avropa kuboku turnirində qızıl medal qazanıb.

115 kilodan yuxarı çəki dərəcəsində mübarizə aparan sumoçumuz birinci və ikinci görüşdə rusiyalı idmançıları məğlub edərək finala vəsiqə qazanıb. C.Feyziyev final mərhələsində Ukrayna təmsilçisini üstələyərək Azərbaycan bayrağını zirvələrə yüksəldib.

Qeyd edək ki, sumoçumuz turnirdə Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayevin rəhbərliyi altında mübarizə aparıb.

## Azərbaycan kubokuna ağır çəkili atletlərin mübarizəsi ilə yekun vurulub



Noyabrın 10-da Şüvələn qəsəbəsindəki Ağır Atletika Akademiyasının yarış zalında keçirilən ağır atletika üzrə Azərbaycan kuboku başa çatıb.

Son olaraq körpücük üzərinə ağır çəkili atletlər çıxıblar. 96, 102, 109 və +109 kiloqram çəki dərəcələrində müvafiq olaraq Kamran İsmayılov, Nailxan Nəbiyev, Əliş Nəzərov və İsmayıl Qurbanov qalib gəliblər.

Yarışlarda şəhər və rayonların, idman klublarının, mərkəzlərinin, Uşaq-gənclər idman məktəblərinin hazırkı əsasnamə üzrə təyin olunmuş dərəcə normalarını yerinə yetirən və tibbi müayinədən keçən yüzə yaxın atleti öz qüvvəsini sınayır. Azərbaycan kubokunun təşkilində məqsəd atletlərin hazırlıq durumlarının yoxlanılması, ehtiyat qüvvənin nəzərdən keçirilməsi, güclü idmançıların seçilməsidir.

## Azərbaycan idmançısı karyerasında beşinci dəfə pauerliftinq üzrə dünya çempionu olub



Azərbaycan idmançısı Zaur Cəfərov noyabrın 9-da Finlandiyanın Laxti şəhərində keçirilən pauerliftinqin WPC növü üzrə dünya çempionatının qalibi olub.

Çempionatda 110 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən Z.Cəfərov benç press hərəkətində 290 kiloqram nəticə ilə yarışın mütləq çempionu adını qazanıb. Məhz 9 noyabr - Dövlət Bayrağı Günündə Azərbaycan bayrağını dalğalandıran idmançımız bununla da beşinci çempionluğunu rəsmiləşdirib.

## Azərbaycan cüdoçuları Kamerunda 5 medal qazanıblar



Kamerunda cüdo üzrə Afrika açıq kuboku yarışı təşkil edilib.

Gələn il Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya xalları verən beynəlxalq turnirdə ölkəmizi 5 qadın cüdoçu təmsil edib.

Leyla Əliyeva (48 kq) və Larisa Florian (57 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar. Digər cüdoçumuz, 52 kiloqram çəki dərəcəsində yarışan Gültac Məmmədəliyeva yalnız finalda uduzaraq ikinci yeri tutub. Aişə Qurbanlı (48 kq) və İçinxorloo Munxtsedev (57 kq) isə bürünc medala layiq görülüblər.

**AZƏRTAC-ın materialları əsasında**

*Ovqat*

# Qəhrəmanlıq

Qəhrəmanlıq haqqında mən də çox oxumuşam, çox eşitmişəm. Oxuduqlarım da, eşitdiklərim də bir-birinə bənzəmir. Hamısının mahiyyəti eyni olsa da, bir-birini təkrarlamır, bir-birinin eyni deyil.

Elə bil olmuşlar bizə pıçıldayır: Tarixin əsrlərdən gələn səsini tanıdınızmı? Bilirsinizmi ki, qəhrəmanlar xalqı gözə görünmədən qoruyurlar. Deməli, qəhrəman fərddir, qəhrəmanlıq - milli, xəlqi ruh, məfkurə, dövlətsevərlik...

Qəhrəmanlıq qəhrəmanların formalaşmasına, məqamında üzə çıxmasına, tarixə görk olmasına çağırışdır.

Qəhrəmanlıq xalqımızın taleyidir, xalqımız bu tale ilə qoşa yaranıb, qoşa formalaşıb, qoşa tarixlər yazıb, tarixi qoşa heyrətləndirib.

2016-cı ilin Aprel döyüşlərini xatırlayıram. Bu döyüşlərin qəhrəmanları Vətən naminə döyüşdülər, hərbçi kimi döyüş əmrini yerinə yetirib döyüşdülər. Lələtəpə, Bayraqtəpə kimi mühüm əhəmiyyətli yüksəkliklərdə qalibiyyət bayrağını dalğalandırdılar. O döyüşlərin iştirakçılarından birinin dedikləri yaddaşımdadı: "Əsl qəhrəmanlıq düşmən əlinə keçməmək üçün son anda özünü məhv etmək bacarığıdır". Çox ciddi tezisdir. Bu bacarıq yalnız türk əsgərinə məxsusdur. Ermənistanın Azərbaycana elan etmədən başladığı müharibədə neçə-neçə azərbaycanlı hərbçi belə qəhrəmanlıq göstərdi.

Düşmənlə qeyri-bərabər döyüşlərdə son gülləleri tükənəndə əsir düşməmək üçün özlərini bir yerdə bir qumbarayla partladan əsgərlərimiz əbədiyyən unudulmayacaqlar. Belə şəhidlik - ölümün üstünə getmək, ölümü vahimələndirmək, düşmənə meydan oxumaqdır.

Şəhidlik Vətənə görə candan keçməkdir...

Şəhidlik Vətəni ruhuyla sevməyin təzahürüdür; Vətəni ruhuyla sevənlər, ruhunuz şad olsun!..

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun III kurs tələbəsi**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Məhərrəmov Rəxşan Rəcəb oğluna 2017-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 693
Nüsxə 3950